

## Küçə, gecə, başqaları...

Ay küçə,
bu gecə
bir qərib keçəcək səndən.
Diksinib eləmə –
ayaqları yalındı.

Ay gecə,
bu küçəynən,
böyründəki küçüynən
bir qərib keçəcək səndən.
Çağırıb eləmə –
«Qabırğası qalındı».

Ay gecə!..
Ay küçə!..
Ay küçük!..
Bu gün sizdən
bir qərib keçəcək,
qəbrinə sarı gedəcək.
Yalvarıb eləməyin –
Zalım oğlu, zalımdı.

***

## (Aydın Canıyevin dilindən

*Şaiq Vəliyə yazılmış şeir)*

Yer kürəsi-
Şər kürəsi.
Kürə, nə kürə?
Təndirg Təndir!

Ən gözəl ətir-
Təndir çörəyi.
Çörək, nə çörək?
Vətəng Vətəng

Ən gözəl yerin -
Vətənim.
vətən, nə vətən?
Kəndirg Kəndir!

***

O gün
qoca gördüm -
Dünyada hər şeyi
hər kəsdən çox bilən
dərin və sakit üzü vardı,
üzü dənizə durmuşdu...

Dəniz gördüm -
Dünyada heç nəyi
heç kimi vecinə almayan
dərin və sakit üzü vardı,
üzüqoyulu uzanmışdı
üzü qocaya...

Çoxbilmiş qoca və
Tənbəl dəniz.
Qoca və Dəniz.

- Hem əmi, Hem əmi,
havadan hərb iyi gəlir
axır vaxtlar.
Sənin çox sevdiyin
rakı
bir də
barıt iyi,
Yəni!..

**Rauf Qaraişıq**